

# Naxçıvan Dövlət Universiteti

## İKİLİ DIPLOM LAYİHƏLƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamına əsasən, Naxçıvan Dövlət Universiteti ilə xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi, birgə proqramların təşkili məqsədilə ikili diplom layihələri:

+36 544 08 61
Naxçıvan şəh.,
Universitet şəhərciyi
strategy@ndu.edu.az



*Çankırı Karatekin Universiteti-Türkiyə*

Naxçıvan Dövlət Universitetinin (NDU) nümayəndə heyəti Çankırı Karatekin Universitetində səfərdə olub. Görüş zamanı iki ali təhsil müəssisəsi arasında ikili diplom proqramına dair protokol imzalanıb.



Rektor Elbrus İsayev vurğulayıb ki, NDU-da ingilis dilində tədris olunan İqtisadiyyat ixtisası üzrə güclü kadr potensialı formalaşıb. Həmin ixtisasın müəllim və tələbələri Avropa və Amerika universitetlərinin professor-müəllim heyəti ilə birgə təlimlərdə iştirak ediblər. Rektor Türkiyə universitetləri ilə həyata keçirilən ikili diplom layihələrinin hər iki ölkə üçün strateji əhəmiyyət daşıdığını və bu istiqamətdə əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyini qeyd edib.

İmzalanan protokola əsasən, tərəflər qarşılıqlı öhdəliklərini müəyyənləşdiriblər, tələbə qəbulu və təqaüd sistemi ilə bağlı şərtlər razılaşdırılıb. Protokol Ali Təhsil Şurasının təsdiqindən sonra növbəti akademik ildən etibarən qüvvəyə minəcək və beş il müddətində etibarlı olacaq.



Layihə çərçivəsində hər iki universitet təhsil almağa göndəriləcək tələbələrin sayını müəyyənləşdirəcək. Proqramın məzunları universitetlərin müəyyən etdiyi tələbləri yerinə yetirdikdən sonra hər iki ölkənin diplomunu alma hüququ qazanacaqlar.

